

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 dekabr 2025-ci il №92 (3001) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.*

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına qəsəbədə görülmüş işlər barədə məlumat verib.

Sonra dövlətimizin başçısı Xankəndi şəhəri Kərkicahan qəsəbə sakini Yadigar Əsədovanın evində olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub.

Dövlətimizin başçısına binada yaradılacaq şərait barədə məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak edib.

Dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Xankəndi-1" elektrik yarımstansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına həyata keçirilmiş işlər barədə məlumat verib.

Dövlətimizin başçısına Qarabağ və Şərqi Zəngəzurda 1000 kilometrədək məsafədə yaradılmış dairəvi elektrik təchizatı sisteminin və istismarının təşkilində innovativ texnologiyaların tətbiqi barədə də məlumat verilib.

Prezident İlham Əliyevə "AzərEnerji" ASC tərəfindən "Yaşıl enerjiyə keçid" meqalayihələri barədə də məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşüb.

(Ardı 2-ci səhifədə)




### Prezident İlham Əliyev 2026-cı ilin Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan olunması ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması ilə əlaqədar sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

### 2026-cı il Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan edilib

2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev bu barədə Sərəncam imzalayıb.

Sərəncam Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə imzalanıb.

Sənədə əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasi Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

### Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü münasibətilə sosial media hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Ləyaqət, saf niyyət və xeyirxah ürək - Uca Tanrının sözsüz eşitdiyi ali dualardır.

Uca Allah Sizi və xalqımızı qorusun!".

### Prezident İlham Əliyev AZAL təyyarəsinin qəzaya uğramasının ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" təyyarəsinin qəzaya uğramasının birinci ildönümü ilə bağlı sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

### Birinci vitse-prezident Mehriban Əliyeva AZAL təyyarəsinin qəzaya uğramasının ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğramasının birinci ildönümü ilə bağlı sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

### Azərbaycan Respublikasının müdafiə naziri Liviya tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Liviya Dövlətinin Baş naziri - müdafiə naziri cənab Abdülhəmid Dibeybəyə başsağlığı verib.

Başsağlığında deyilir: "Türkiyə Respublikasından rəsmi səfərdən qayıdan 9H-DFJ bort nömrəli "Falkon 50" tipli təyyarənin qəzaya uğraması nəticəsində şəxsən tanıdığım Liviya Dövləti Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Məhəmməd Əli Əhməd Əl Haddadın və digər heyətin həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Faciəvi qəza zamanı bütün həlak olanların yaxınlarının və əzizlərinin kədərinə şərik olduğumuzu bildirir, Allahdan səbir diləyirik.

Ruhları şad, xatirələri əziz olsun.

Allah rəhmət eləsin".

### Azərbaycan ilə Türkiyə qarşılıqlı hərbi təhlükəsizliyi möhkəmləndirir



Azərbaycan ilə Türkiyə qarşılıqlı hərbi təhlükəsizliyi möhkəmləndirir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nu təsdiqləyib.

Səkkiz maddədən ibarət sənədə əsasən, tərəf dövlətlər birinin silahlı təcavüzə məruz qaldığı halda BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və birgə özünümüdafiə hüquqlarının həyata keçirilməsi üçün bir-birilərinə qarşılıqlı yardımın göstərilməsi öhdəliyini götürürlər. Tərəflərin bir-birilərinə hərbi yardım göstərməsi onlardan birinin sorğusu əsasında və müvafiq milli qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilir. Sənədə uyğun olaraq, tərəflər öz milli qanunvericiliklərinə əsasən, hərbi sahədə məlumat mübadiləsini və hərbi kəşfiyyat üzrə əməkdaşlığı gücləndirəcək, hərbi təhlükəsizlik sahəsində əldə olunan məlumatları bir-biri ilə paylaşa və bu məlumatlardan birgə əməliyyatlar zamanı istifadə edə biləcəklər.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi




(Əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev sakinləri salamlayıb.

**Sakinlər**: Salam, xoş gəlmisiniz, cənab Prezident.

Prezident **İlham Əliyev**: Sağ olun, siz də xoş gəlmisiniz.

**Sakinlər**: Çox şükür. Allah Sizi qorusun.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Sakin**: Allah Sizi qorusun, mənim komandanım, Allah Sizi var eləsin.

Prezident **İlham Əliyev**: Doğma torpağa 34 ildən sonra qayıdışınız münasibətilə sizi təbrik edirəm. Şükür Allaha, torpaqlarımız işğalçılardan azad olundu və bütün keçmiş köçkünlər yavaş-yavaş öz dədə-baba torpaqlarına qayıdırlar, o cümlədən bu gün Kərkicahan qəsəbəsinə də keçmiş köçkünlər qayıdıb və bu qayıdış prosesi davam edir. Yəni, "Böyük Qayıdış" Proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır. Siz isə uzun illər çətin şəraitdə, həm fiziki, həm mənəvi əzablar içində yaşamısınız. Artıq buna son qoyuldu və 34 ildən sonra doğma Kərkicahana qayıdırsınız. Böyük xoşbəxtlikdir, həm sizin üçün, həm də xalqımız üçün.

**Sakinlər**: Allah Sizə ömür versin.

Prezident **İlham Əliyev**: 1991-ci il dekabrın sonunda Ermənistan dövləti sizi öz dədə-baba torpağınızdan didərgin salmışdı. Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur. Əlbəttə, təsəvvür etmək çətin deyil ki, bu illər ərzində necə əzab-əziyyət içində yaşamısınız. Həm ev şəraiti, həm mənəvi əzab, ədalətsizlik hissi. Amma əminəm, siz də bütün xalqımız kimi inanırdınız ki, gün gələcək və biz buraya qayıdacağıq. İki il bundan əvvəl antiterror əməliyyatı nəticəsində Kərkicahan qəsəbəsi Xankəndi şəhəri ilə birlikdə işğalçılardan azad edilmişdir və artıq burada həyat yenidən qurulur.

Mən oktyabr ayında bu qəsəbəyə gəlmişdim. O vaxt göstəriş verdim ki, evlər, məktəb təmir olunsun, digər lazımi infrastruktur layihələri icra edilsin. Bu gün qəsəbə ilə tanış olarkən görürəm ki, hər şey yüksək səviyyədə təşkil olunub, qəsəbə göz oxşayır. Əlbəttə ki, bu, qəsəbənin bərpasının birinci mərhələsidir. Çünki işğal dövründə düşmən buranı da yararsız vəziyyətə salmışdı. Evlərin bir çoxunda heç yaşamaq mümkün deyil. Ona görə təqribən iki ilə yaxın təmir-bərpa işləri aparılıbdır. İndi isə artıq qəsəbənin bəzi küçələri tam abadlaşdırılıb, evlər tam hazır vəziyyətə gətirilib və burada yaşamaq üçün bütün şərait var.



Sizi bu hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, burada rahat və firavan yaşayacaqsınız. Əsas odur ki, öz doğma torpağınızdasınız.

**Sakin**: Allah canınızı sağ eləsin. Sabah ad gününüzdür. Ürəkdən təbrik edirəm.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Kişi sakin**: Cənab Ali Baş Komandan, çox minnətdarıq ki, Siz bizi bu gün doğma Kərkicahanımıza qaytardınız, Qarabağımıza qaytardınız. Bu günlərə şükürlər olsun. Ağlaya-ağlaya dekabrda tərk etmişdik, indi gülə-gülə qayıdırıq. Allah Sizi qorusun, ailənizi qorusun.

Prezident **İlham Əliyev**: Sağ olun. Əfsuslar olsun ki, o vaxt Azərbaycan rəhbərliyi sizi qoruya bilmədi, iradə göstərə bilmədi, qorxaqlıq göstərdi və faktiki olaraq işğalla barışmalı oldu. Ondan sonra gələn hakimiyyət vəziyyəti daha da bərbad vəziyyətə salmışdı. Faktiki olaraq Şuşanın, Laçının işğalı Kərkicahanın işğalından təqribən beş ay sonra baş verdi. Ona qədər Xocalı soyqırımı törədildi. O vaxt həm sovet dövründən qalan rəhbərlik, həm də ki, guya xalq hərəkatına aid olan rəhbərlik faktiki olaraq burada yaşayan insanları taleyin ümidinə buraxmışdı. Sizi müdafiə edə bilərdilər, etmədilər. Bəziləri qorxaqlıqdan, bəziləri isə hakimiyyətə gəlmək üçün Azərbaycanda xaos, anarxiya yaratmaq məqsədilə bir çox hallarda xəyanət edərək torpaqlarımızı düşmənə təhvil vermişdi. Ondan sonra hakimiyyətə gələn AXC-Müsavat cütlüyü yarıtmaz və xəyanətkar fəaliyyəti ilə ölkəmizi dərin böhrana salmışdı. Vətəndaş müharibəsi, Kəlbəcərin işğalı və faktiki olaraq Laçın-Xankəndi yolunun itirilməsi - bütün bunlar Ermənistan üçün böyük üstünlük təmin etdi və nəticədə işğala, böyük işğala yol açdı. Biz isə gecə-gündüz öz əzəli torpaqlarımızı düşmənin tapdağından qurtarmaq üçün çalışmışıq, vuruşmuşuq, müharibədə Qələbə qazanmışıq. Düzdür, İkinci Qarabağ müharibəsi zamanı işğala tam son qoymasaq da, heç vaxt şübhə etmirdik ki, tezliklə Xankəndi, Xocavənd, Ağdərə, Əsgəran, Kərkicahan və o vaxt hələ işğal altında olan bütün digər qəsəbə və şəhərlər azad olunacaq. İki il bundan əvvəl cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində işğala tam son qoyduq, suverenliyimizi bərpa etdik, işğalçıları torpaqlarımızdan əbədi qovduq və bu gün sülh içində yaşayırıq. Bu elə bir şərəfli tarixdir ki, əminəm, bugünkü nəsil, bundan sonrakı nəsillər bu şərəfli tarixlə əbədi olaraq fəxr edəcəklər.




**Sakinlər**: İnşallah.

Prezident **İlham Əliyev**: Sizin buraya qayıtmağınız bir daha göstərir ki, ədalət var, sadəcə olaraq, onu təmin etmək lazımdır. Bir daha sizi təbrik edirəm.



* * *

Prezident **İlham Əliyev**: İşğal dövründə harada yaşamısınız?

**Sakin**: Gəncədə yataqxana şəraitində, ağır vəziyyətdə.

Prezident **İlham Əliyev**: Yataqxanada.

**Sakin**: Allah Sizə uzun ömür, cansağlığı versin ki, bizi o şəraitdən qurtardınız. Ulu Tanrı Sizi qorusun. "Dəmir yumruğ"unuz həmişə düşmənin başının üstündə olsun. Allah qolunuza qüvvət versin.



**Sakinlər**: Amin.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Qadın sakin**: Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əvvəlki müharibədə və axırıncı müharibədə zəhməti olanlara, qazilərimizə cansağlığı versin. Amin.

Prezident **İlham Əliyev**: Siz harada yaşayırdınız, Gəncədə?

**Qadın sakin**: Yox, Goranboyun Meşəli qəsəbəsində. Bir dəfə orada məskunlaşdırmısan bizi, indi də burada evlə təmin etmisən. Allah sizə dəyməsin.

**Kişi sakin**: Çox sağ olun, cənab Prezident. Siz ki, bu tarixi günü bizə yaşatdınız, Allah Sizdən razı olsun, ailənizi qorusun.

**Sakinlər**: Amin.

Prezident **İlham Əliyev**: Sağ olun. Sizə cansağlığı, xoşbəxt həyat arzulayıram. Bir daha təbrik edirəm.

**Sakinlər**: Çox sağ olun, cənab Prezident.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xocalı rayonunun Ballıca kəndində "Accurate Az" MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Accurate Az" MMC-nin təsisçisi İlkin Abuşov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat veriblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib.

"Construction" MMC-nin təsisçisi Nurlan Abbasov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoyub.

"Saloğlu Qarabağ" MMC-nin təsisçisi Tacəddin Mustafayev dövlətimizin başçısına yeni yaradılacaq müəssisə haqqında məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hotelinin açılışında iştirak edib.

Dövlətimizin başçısına burada yaradılmış şərait barədə məlumat verilib.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi

(Əvvəli 2-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma parkda yaradılmış şərait barədə məlumat verib.

Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub.

Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Bina 10 mərtəbədən və terrasdan ibarətdir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub. Doqquzuncu mərtəbədə "Zəfər qalereyası" sərgi-nümayiş zalı yaradılıb.

Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib. Ümumilikdə parka 500-dən çox ağac və 11 mindən artıq kol və gül əkilib.

Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması bir neçə mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir. Eyni zamanda, park Xankəndi sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edəcək. Bundan başqa, belə istirahət məkanlarının yaradılması işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı bərpa-quruculuq işlərinin uğurla davam etdiyini göstərir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kompleksdə yaradılmış şərait barədə məlumat verib.



Bildirilib ki, ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla, ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yerüstü və 1218 yerlik yeraltı avtomobil dayanacaqları yaradılıb.

Qeyd edək ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

Qarabağın və Şərqi Zəngəzurun bərpasında əsas prinsip müasir standartlara uyğun məntəqələrin qurulması ilə keçmiş məcburi köçkünlərin rahat yaşayışını təmin etməkdən ibarətdir. Bununla yanaşı, sosial infrastrukturun yaradılması xüsusilə diqqət mərkəzində saxlanılır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir, məşğulluğun təmin olunması üçün sənaye parkları, müxtəlif istehsal müəssisələri, xidmət sahələri yaradılır. Bütün bu tədbirlər Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və bölgənin sürətli inkişafına xidmət edir.

* * *

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərinə köçən sakinlərlə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Mən sizi ürəkdən salamlayıram. Bu gün Ağdam şəhərinin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Uzun fasilədən sonra ağdamlılar öz doğma şəhərinə qayıdırlar. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, burada siz rahat yaşayacaqsınız, əmin-amanlıq şəraitində yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər köçkün həyatını yaşamış insanlar üçün bu gün Ağdam şəhərində və işğaldan azad edilmiş bütün başqa ərazilərdə yeni, müasir şəhərlər, kəndlər, qəsəbələr salınır və artıq "Böyük Qayıdış" Proqramının əyani təzahürlərini hər



kəs görə bilir.

İşğal dövründə Ağdam demək olar ki, urbisidə məruz qalmışdır. Yəni, şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır.

Əminəm, bütün xalqımız, o cümlədən keçmiş köçkünlər bilirdilər və inanırdılar ki, tarixi ədalət bərpa ediləcək. Halbuki Ermənistan-Azərbaycan münaqişəsi ilə məşğul olan, hər halda beynəlxalq təşkilatlar tərəfindən bu vəzifəni icra etməli olan qurumlar başqa fikirdə idi. Onlar Ermənistan dövləti ilə, işğalçı, talançı dövlətlə həmrəy idilər. Xüsusilə ATƏT-in Minsk qrupunun yarıtmaz və anti-Azərbaycan fəaliyyətini qeyd etmək istərdim. Bu qrup 1992-ci ildə yaradılmışdır və o vaxt bizim torpaqlarımızın işğal altına düşməsinin birinci mərhələsi idi. Bu qrupun və onun həmsədrlərinin məqsədi məsələni həll etmək əvəzinə, əksinə, bu işğalı əbədi etmək, Ermənistana haqq qazandırmaq, Azərbaycan xalqını və dövlətini isə işğalla barışdırmaq idi. Mən 17 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmasda olmuşam, onlarla çoxsaylı görüşlər keçirmişəm. Hər dəfə görüşəndə illər keçdikcə görürdüm ki, bunların məqsədi məsələni həll etmək, işğala son qoymaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq yox, işğalı əbədi etmək idi. Sanki danışıqlar masasında bir tərəfdə Ermənistan və Minsk qrupunun həmsədrləri, digər tərəfdə isə Azərbaycan idi. Bax, bu 17 il ərzində keçirdiyim saysız-hesabsız görüşlərin nəticəsi budur. Hesab edirdilər ki, buna nail olacaqlar. Hesab edirdilər ki, bizi inandırmağa nail olacaqlar ki, biz öz əzəli torpaqlarımızdan əl çəkək. Ancaq yenə də Ermənistan dövləti kimi səhv etdilər. Mən işğal dövründə dəfələrlə demişdim ki, xalqımız və dövlətimiz heç vaxt işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını qaytaracaq. Bunu Prezident kimi fəaliyyətə başladığım ilk dəqiqələrdə - birinci andiçmə mərasimindəki çıxışımda və ondan sonrakı dövrdə bildirmişəm. Bu illər ərzində biz bir məqsəd ətrafında birləşmişdik ki, bir nöqtəyə vuraraq xalqımız bu müqəddəs missiyanı yerinə yetirsin.

Beş il bundan əvvəl şanlı İkinci Qarabağ müharibəsi və onun nəticələri haqq-ədaləti bərpa etdi, bizim hüquqlarımızı bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, bizim milli ləyaqətimizi bərpa etdi. Xalqımız qan tökərək öz ərazi bütövlüyünü bərpa edib. Ermənistan dövləti bir qarış, bir santimetr torpaq qaytarmaq fikrində deyildi. Ermənistanın bütün rəhbərləri, müstəqillik illərində Ermənistana rəhbərlik edən bütün şəxslər bir qarış torpaq qaytarmaq fikrində deyildilər. Biz onları məcbur etdik və xalqımız bütün dünyaya öz gücünü, qüdrətini, güclü iradəsini göstərmişdir. Xalq yumruq kimi birləşdi. Silahlı Qüvvələrimiz qəhrəmanlıq, fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Cəmi 44 gün ərzində Ermənistanın böyrü üstə qoyduq. Bu günlər bu gün Xankəndidə açdığım Zəfər tağının pilləkənlərində də əks olunub. Əminəm ki, oraya da siz və bütün Azərbaycan vətəndaşları gedəcəklər, ziyarət edəcəklər. Bu gün ölkəmizdə ikinci Zəfər tağı açılmışdır - Bakıdan sonra Xankəndidə. Orada pilləkənlərin üzərində şanlı Zəfər yürüşümüzün hər günü təsbit edilib. Biz hər gün irəli gedirdik, hər gün şəhər və kəndləri azad edirdik və heç bir qüvvə bizim qabağımızda dura bilməzdi. Halbuki bizi 44 gün ərzində dəfələrlə dayandırmaq istəyənlər min cür təzyiq, təhdid və təxribat törətməyə çalışırdılar və hətta törədirdilər. Bizi qorxutmaq, bizi dayandırmaq, bizim şanlı Zəfər yürüşümüzü yarımçıq qoymaq və münaqişəni əbədi etmək - bax, bizə qarşı olan qüvvələrin məqsədi bu idi. Təbii ki, 5 il keçəndən və biz 2023-cü ildə öz suverenliyimizi antiterror əməliyyatı nəticəsində tam bərpa edəndən sonra artıq bizə qarşı olan qüvvələr yeni reallıqla barışmağa məcbur idilər, biz onları məcbur etdik. O cümlədən bizim Qələbəmizi qəbul etməyənlər, bunu həzm edə bilməyənlər, ermənipərəst qüvvələr məcbur olaraq bugünkü reallıqlarla barışmalı oldular. Ermənistan dövləti bu vəziyyətlə barışmalı oldu. Vaxtilə buradan uzaqda olmayan Xankəndi şəhərinin stadionunda "Qarabağ Ermənistandır və nöqtə" deyənlər "Qarabağ Azərbaycandır!" deməyə məcbur oldular. Yəni, öz xoşu ilə yox, məcbur edən də biz olduq - xalqımız, dövlətimiz. Yəni, bu tarixi biz heç vaxt unutmamalıyıq. O acı günləri yaşayan yaşlı nəsil, təbii ki, heç vaxt unutmayacaq. Gənc nəsil unutmamalıdır. Bundan sonra gələn nəsillər, gələcək nəsillər unutmamalıdır, bilməlidir. Bu tarix həm məktəblərdə, həm ali məktəblərdə, ailələrdə əzbər olmalıdır. Yəni, bu, bizim şanlı Zəfərimizdir. Eyni zamanda, bundan sonra sülh içində, təhlükəsizlik içində yaşamaq üçün biz bu tarixi heç vaxt unutmamalıyıq.

Biz bilirik bizim dostumuz kim olub, düşmənlərimiz kim olub. Əfsuslar olsun ki, düşmənlərimiz dostlarımızdan bir neçə dəfə çox olub. Amma bu gün bizim güclü iradəmiz, siyasi addımlarımız, Silahlı Qüvvələrimizin güclü olması artıq tamamilə yeni mənzərəni ortaya qoyur. Beş il bundan əvvəl döyüş meydanında qazandığımız Qələbəni biz 2 il bundan əvvəl antiterror əməliyyatı nəticəsində tam əldə etdik.

(Ardı 4-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi



(Əvvəli 3-cü səhifədə)

Ondan sonra keçən 2 il ərzində bütün beynəlxalq təşkilatlarda bunu təsdiqlədik. Mənfur Minsk qrupunun tarixin arxivinə göndərilməsi də məhz bizim təkidimizlə olmuşdur. Bu ayın əvvəlində Minsk qrupu və ona bağlı olan bütün təsisatlar rəsmən ləğv edildi. Bu da bizim tələbimiz idi və Ermənistan tərəfi demək olar ki, 5 il ərzində buna müqavimət göstərirdi. Ancaq yenə də deyə bilərəm ki, bizim iradəmizin qarşısında heç kim dura bilməz.

Bugünkü yeni reallıqlar dünyanın aparıcı ölkəsinin Prezidentinin iştirakı ilə avqust ayında təsdiqləndi, möhürləndi. Bizim Qələbəmizin çox böyük və güclü möhürü də vuruldu, onunla da separatçılığın, bizə qarşı ərazi iddialarının, anti-Azərbaycan qüvvələrinin bizə qarşı açıq "soyuq savaş"ın artıq sonu gəldi, separatçılığın kitabı bağlandı və Azərbaycan xalqı artıq bir neçə aydır ki, sülh içində yaşayır.

Bizim xalqımız böyük fəlakətlə üz-üzə qalmışdı. Bilmirəm, dünyada buna oxşar ədalətsizliklə üzləşən xalqlar var, yoxsa yox, - bəlkə də var, - amma son illərin tarixində ən böyük ədalətsizliklə biz üzləşmişdik. Çünki torpaqlarımız işğal altına düşdü. Belə hallar dünyada var. Biz nə birinci idik, nə də sonuncu. Amma bütün belə hallar olduğu vaxtda beynəlxalq təşkilatlar, böyük dövlətlər və müxtəlif ölkələrin siyasi dairələri bu işğalı qınayır, işğalçını məcbur etmək üçün müxtəlif üsullardan istifadə edir, sanksiyalar tətbiq edir. Bunu biz görürük, indi yaxın tariximiz bunu göstərir. Ermənistan-Azərbaycan müharibəsi zamanı və müharibədən sonra atəşkəs dövründə beynəlxalq təşkilatlar düzgün qərar qəbul etsələr də, bu qərarların icrası üçün bir addım belə atmayıblar. Bax, bu təşkilatların, böyük dövlətlərin riyakarlığı, necə deyərlər, özünü burada bariz şəkildə göstərir. Bizi işğalla barışdırmaq böyük dövlətlərin əsas vəzifəsi idi. Bizim yanımızda olan tək ölkə Türkiyə idi. Buna görə biz türk qardaşlarımıza minnətdarıq, həm işğal dövründə, həm müharibə dövründə bizə daim siyasi və mənəvi dəstək vermişdir.

Müsəlman ölkələri. Onlar İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bizim təkliflərimizə həmişə müsbət reaksiya verərək, lazım olan qərar və qətnamələri qəbul etmişdilər. Ancaq bütövlükdə götürəndə bizim müharibəmiz və işğal tariximiz bütün başqa, buna oxşar hadisələrdən fərqlənir. Çünki yenə də deyirəm, işğalçıya qarşı heç bir sanksiya tətbiq olunmadı. Bu gün dünyada müxtəlif yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş alıb gedir. Ya beynəlxalq təşkilatlar, ya böyük nüfuzlu ölkələr dərhal nə edirlər? Sanksiyalar tətbiq edirlər. Əlbəttə ki, sanksiyaların da böyük təsiri var. Xüsusilə Ermənistan kimi kiçik və zəngin olmayan, demək olar ki, kasıb ölkəyə əgər sanksiyalar tətbiq edilsəydi, əlbəttə, Ermənistan işğala son qoyardı. Ancaq nəinki sanksiyalar tətbiq edilmədi, əksinə, onlara bəzən pulsuz silahlar verirdi, özü də bir milyon dollarlıq yox, milyardlarla dollar dəyərində. Bizim həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı nəticəsində Ermənistandan qənimət kimi götürdüyümüz və məhv etdiyimiz silahların pul dəyəri təqribən 5-6 milyard dollardır. Bunların dağılmış bəzi nümunələri Bakıda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o cümlədən "İsgəndər M" ballistik raketi, hansı ki, ümumiyyətlə, Ermənistanda olmamalı idi. Çünki "İsgəndər M" raketinin ixracı qadağandır. Əgər belə demək mümkündürsə, ixraca açıq olan "İsgəndər E", yəni, eksport növüdür. "İsgəndər M" raketi necə Şuşaya zərbə endirdi? Elə bu, böyük sualdır. Yəni, pulsuz silah, maliyyə yardımı. Hər il Amerikada, Fransada marafonlar keçirilirdi. Separatçılar, separatçı liderlər, - hansılar ki, bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər, - oraya vizalar alırdılar. Necə ola bilər? Minsk qrupunun həmsədr ölkələrinə separatçılar necə gedə bilərdilər? Axı digər separatçı ərazilər də var. Onlara Amerikaya, yaxud da ki, Fransaya kimsə viza verə bilər? Gedin, baxın, bu gün nə qədər separatçı inzibati ərazi var?! Ukrayna ərazisində, Moldova ərazisində, Gürcüstan ərazisində separatçı yuvalar var. Onların rəhbərlərinə Amerika, Fransa, Avropa ölkələri viza verə bilər? Yox. Amma erməni separatçılarına niyə vizalar verilirdi? Yəni, dediyim sözün bir təsdiqi də budur. Onlar telemarafonlar keçirirdi, 100 milyonlarla dollar pul yığırdılar. Onlara gizli mənbələrdən də pul ötürülürdü, bir məqsədlə ki, bu torpaqları əbədi işğal altında saxlasın, Azərbaycan xalqına divan tutsun, bu şəhər və kəndləri daim nəzarət altında saxlasın. Bax, görün biz kimlərlə kəllə-kəllə getmişik. Biz görün Ermənistana olan hansı dəstəyin fonunda İkinci Qarabağ müharibəsində Qələbə qazanmışıq. Yəni, ona görə bütün bunlar, necə deyərlər, həm düzgün çatdırılmalıdır, həm də bizim təhsil müəssisələrimizdə, ictimai məkanda dəqiq təqdim edilməlidir, yəni, bu unudulmamalıdır və biz də heç vaxt unutmamalıyıq.

Düzdür, indi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bu sülh prosesinin təşəbbüskarı da biz olmuşuq. Onu da hamı bilir və bilməlidir. Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik. Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq. Çünki bu tarixi yaddaş həmişə bizim qəlbimizdə olmalıdır. Şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq. Bax, bunu mən bir də deyirəm. Mən bunu birinci dəfə deyil ki, deyirəm. Ayıq olmalıyıq, daim güclü olmalıyıq. Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini gördü. Əbədi sülhə nail olmaq üçün biz hər zaman potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq. Bunu təmin edirik və edəcəyik.

Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir. Üç kənddə insanlar yaşayır. Mən bu kəndlərin yenidən istifadəyə verilməsi mərasimlərində iştirak etmişəm - Kəngərli, Sarıcalı, Xıdırlı. Orada indi bir neçə min insan yaşayır və bu köç prosesi davam edir. Bu gün Ağdam şəhərində artıq insanlar yerləşir və bu yaşayış məhəlləsindəki 1268 mənzildə ağdamlılar yerləşəcək. Daha iki məhəllədə inşaat işləri gedir. Təkcə bu məhəllədə 60 çoxmərtəbəli bina var. Bütün şərait yaradılıb, infrastruktur qurulub və burada rahat yaşamaq üçün bütün imkanlar var. Təbii ki, Ağdam şəhərinin tam istədiyimiz kimi qurulması zaman tələb edir.

Onu da hər kəs yaxşı bilir ki, təkcə Ağdamda deyil, azad edilmiş bütün başqa ərazilərdə genişmiqyaslı quruculuq işləri gedir, "Böyük Qayıdış" Proqramı uğurla icra edilir. Ağdam rayonunda isə artıq bir neçə önəmli infrastruktur obyekti, mədəni obyekt istismara verilmişdir. Mən dünən Ağdam Sənaye Məhəlləsində yeni müəssisələrlə tanış olmuşam. Artıq 30-dan çox rezident qeydə alınıb. Onların bəziləri fəaliyyətə başlayıb, bəziləri isə yaxın gələcəkdə fəaliyyətə başlayacaq. Ağdam ölkəmizin böyük sənaye şəhəri olacaq. Bakı, Sumqayıt və Gəncədən sonra, yəqin ki, dördüncü sənaye mərkəzi olacaq.




Burada nəqliyyatla bağlı məsələlər həll olunur. Birinci layihə Bərdə-Ağdam avtomobil yolu, Bərdə-Ağdam dəmir yolu olmuşdur. Dəmiryol vağzalı istismara verilmişdir. Hazırda biz vaxtilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Ağdam-Xankəndi dəmir yolunun inşası ilə məşğuluq.

**Sakinlər**: Allah rəhmət eləsin.

Prezident **İlham Əliyev**: Allah ölənlərinizə rəhmət eləsin. Bu dəmir yolunu da biz yenidən qururuq. Ağdam Cümə məscidi birinci bərpa olunan tarixi-dini abidəmizdir. Qiyaslı məscidi, - hansı ki, tamamilə dağıdılmışdır və orada da Ağdam Cümə məscidi kimi Ermənistan dövləti bütün müsəlmanları təhqir etmək üçün heyvan saxlayırdı, - o da açıldı. Suvarma işləri öz həllini tapır. Xaçınçay su anbarı yenidən quruldu. Həm Ağdam üçün, həm də bütün ölkəmiz üçün vacib olan mədəni digər abidə "İmarət" kompleksidir. O da tamamilə bərpa edildi. Natəvanın ermənilər tərəfindən dağıdılmış heykəlinin eynisi qoyuldu. Məktəb istifadəyə verilmişdir. Çox gözəl, böyük məktəb, Muğam Mərkəzi, iki mehmanxana. Yəni, o qədər işlər görülüb ki, bəlkə də hansılarısa mən unutmuşam. Amma, yəni, hər şey göz qabağındadır. Bütün bunlar da cəmi 5 il ərzində yaradılıb. Yəni, bilirsiniz o nəyi göstərir? Təkcə söhbət ondan getmir ki, biz proqram qəbul etmişik və təbii ki, nəzarət var. Mən də dəfələrlə azad edilmiş ərazilərə gedərkən özüm şəxsən nəzarət edirəm. Söhbət ondan gedir ki, bütün xalqımız bu işləri böyük həvəslə görür. Əgər bu amil olmasaydı, biz qısa müddət ərzində bu qədər işi görə bilməzdik. Məsələn, dünən Xankəndidə Qarabağ Universitetinin yeni korpusunun açılışında idim. Tamamilə sıfırdan tikilmiş yeni, gözəl binadır. Maraqlanıram ki, burada yeni tədris prosesi necə gedir? Tələbələr, müəllimlər. Müəllimlərin bəziləri xaricdən, bəziləri isə Azərbaycanın müxtəlif yerlərindən gəlir dərs deməyə. Mən maraqlanıram ki, bəs motivasiya nədir? Onları nə cəlb edir? Mənə deyirlər ki, Qarabağ cəlb edir bizi.

Bir daha sizi təbrik edirəm, cansağlığı arzulayıram.

* * *

Sonra sakinlər çıxış ediblər.

**Birinci kişi sakin**: Cənab Prezident, bu gün Ağdam camaatı üçün ikiqat bayramdır. Həm Sizin doğum gününüzdür, həm də Ağdam şəhərinin açılışı günüdür. Siz prezidentlik dövrünüzdə nə söz vermişdinizsə, onun hamısını vaxtında yerinə yetirdiniz və bizi 30 illik Ağdam həsrətindən qurtardınız. Allah Sizə uzun ömür, cansağlığı versin. Mən bir ziyalı, bir şəhid atası və Qarabağ veteranı kimi öz adımdan, bütün ağdamlılar adından Sizə uzun ömür, cansağlığı, fəaliyyətinizdə uğurlar arzu edirəm. Sağ olun, Allah Sizə ömür versin.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Birinci qadın sakin**: Salam, əziz Prezident, xoş gəldiniz, Mehriban xanım. Sizi həmişə xalqın arasında görmək bizim üçün böyük fəxrdir, bizi çox sevindirir, qürur verir. Ağdamlılar adından Sizi təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq.

**İkinci qadın sakin**: Yüz yaşayasan.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Birinci qadın sakin**: Bizə qürur verir ki, Siz həmişə xalqın arasındasınız. Çox sağ olun, var olun. Sizə təşəkkür edirik ağdamlılar adından. Milli Qəhrəmanımız Allahverdi Bağırovun həyat yoldaşıyam. Təşəkkür edirəm.

Prezident **İlham Əliyev:** Sağ olun.

**İkinci kişi sakin**: Mən də təqdimat edim: ruhani şair, Ağdamdan din xadimi Hacı Fərman Azançı. Cənab Prezident, əvvəla sizlərin üzərinə Allahın salamı, rəhməti və bərəkəti olsun ki, bu gün o qədər bizim ürəyimiz açılıb ki, Quzanlıdan bu gün buraya gələndə and olsun Allaha, elə bilirdik ki, Kəbəni ziyarət eləməyə gəlirik. Ağdam bizim Kəbəmiz, qibləgahımızdır. Bu gün bütün bunları bizə bəxş edən Siz, Sizin Müzəffər, Qalib Ordunuz, şəhidlərimiz, döyüşən oğlanlarımızdır. Allah, Xudavəndi Aləm sizlərdən razı olsun. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

(Ardı 5-ci səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi

(Əvvəli 4-cü səhifədə)




Mən nəyi demək istəyirəm, bayaq Ağdam məscidinin adını çəkdiniz. Mənim yadıma nə düşdü: mənfur ermənilər orada donuz saxlayırdılar. Siz gəldiniz, oranı bərpa etdiniz. Bu gün həmin məsciddən azan səsləri ucalır, insanları doğruluğa, dürüstlüyə, Allaha doğru ibadətə, itaətə dəvət edir. Siz o məscidin qarşısında durdunuz və dediniz ki, "Qarabağ Azərbaycandır!". Bu, eləbelə məsələ deyil. Ondan əlavə, bu gün Ağdam dirçəlir. Beş il müddətində sıfırdan o qədər işlər görülüb ki, təsəvvür edin, bu boyda binalar, məktəblər Ağdamın rəmzləri olubdur. Biz ağdamlıların ürəyində nisgil idi, yaşamışıq bunu. Təsəvvür edin, "İmarət" kompleksi, Çay evi, - göstəriş vermisiniz ora bərpa olunur, - Ağdamın simvollarından Çörək muzeyi, mədəniyyət evimiz, bir nömrəli məktəbimiz... İnşallah, onlar da bərpa olunacaqdır. Yəni, bütün bunların həyata keçməyi Sizin əməyinizdir. Mən Ağdamın özündənəm. Bizim uşaqlığımız bu yerlərdə keçibdir. Bu gün bizi o günlərə qaytarmaq, bizə sevinc bəxş etmək elə-belə məsələ deyil. Biz Sizə 210 minlik ağdamlılar adından ürəkdən təşəkkür edirik. Allah Sizdən razı olsun, Allah Sizi var eləsin!

Prezident **İlham Əliyev**: Sağ olun.

**Üçüncü qadın sakin**: Bu gün biz buraya yığışmışıq. Şəhidlərimizin ruhu şad olsun, qazilərimizə Allah kömək olsun. Allah Sizə də cansağlığı versin. Ad gününüzü təbrik edirəm, cənab Prezidentimiz, başınıza dönüm Sizin. Yüz yaşayasan!

Bu gün 83 yaşımda, - yəqin yadınızda olar, o vaxt çəkiliş olanda 79 yaşım var idi, indi 83 yaşımın içindəyəm, - burada, bu torpağın üstündə Sizinlə birlikdə, bütün xalqımla birlikdə durmağı Allah-taala mənə nəsib etdiyinə görə çox şadam. Çox şükür, o açar təkcə evimin açarı deyil, o torpağımızın açarıdır, qızıl açardır. Çox şadam, Allah Sizi var eləsin, canınız sağ olsun. O vaxt Allah-taaladan möhlət arzuladım ki, torpağımızın alınması münasibətilə gəlim, burada Sizə, Mehriban xanıma təşəkkürümü bildirim.

Cənab Prezident, 24 dekabr - bu gün Sizin ad gününüzdür. Öz ad gününüzdə burada bizimləsiniz. Biz Sizi ürəkdən təbrik edirik. Sizə gözəl günlər arzulayırıq. Allah razı olsun Sizlərdən.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Üçüncü kişi sakin**: Çox hörmətli Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev, Azərbaycanın çox hörmətli birinci xanımı, vitse-prezidentimiz Mehriban xanım, çox xoş gəlmisiniz. Gələn qədəmləriniz mübarək olsun, sağlam olasınız, gümrah olasınız. Ağdam torpağına 32 il idi həsrət idik. Hər dəfə Sizinlə görüşdə deyirdiniz ki, Maarif, arxayın ol, mən o torpaqları işğaldan azad edib sizi oraya aparacağam. Həqiqətən, elə də oldu. Şəxsən mənim və bütün ağdamlıların bu gün o qədər yüksək səviyyədə sevinci var ki, adam bilmir, nədən başlasın, nədə qurtarsın. Bu gün Sizin doğum gününüzdür. Mən hər ikinizi, sizin övladlarınızı təbrik edirəm. Doğum gününüz münasibətilə Sizə sağlam ömür, uğurlar arzu edirəm. Allah Sizi qorusun.

Bir də demək istəyirəm, cənab Prezident, uzun illərin təcrübəsində görmüşəm ki, İlahinin yaratdığı sevimli bəndəsi xeyirxah işlərlə məşğul olur - körpüsü olmayan yollara körpü salır, yolu olmayan yerlərə yol, işığı olmayan şəhərə işıq çəkir, suyu olmayan yerlərə su çəkir, evi olmayan adamların həmisına ev tikir, yardım edir. Bunların hamısı hər ikinizdə var - həm Prezident İlham Əliyevdə, həm də Azərbaycanın birinci xanımı Mehriban xanımda. Ona görə ki, Siz Ulu Öndərimiz Heydər Əliyevin övladısınız və onun tapşırığı, varisliyi ilə Azərbaycanı həmişə qoruyursunuz. Biz buna sevinirik, şad oluruq.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Həmin kişi sakin**: Ulu Öndərin vəsiyyətlərinin hamısını mən bilirəm. Onların hamısına əməl edirsiniz. O deyirdi, tapşırırdı ki, Siz Azərbaycanın işğal olunmuş 20 faiz torpağını bərpa etməlisiniz, sərhədləri düzgün müəyyənləşdirməlisiniz. İşğal olunmuş kəndləri, şəhərləri, o yerlərin hamısını azad etməklə yanaşı, yeni kənd, yeni şəhər, yeni qəsəbə salmalısınız. Bunların hamısını edirsiniz, cənab Prezident, Allah Sizi qorusun. Mən bir ağsaqqal kimi, - 81 yaşım var, - bunu deyirəm, İlahi qüvvə var, Sizə heç bir qüvvənin gücü çatmaz. Ona görə ki, deyilən bu işlərin hamısını Siz İlham Heydər oğlu Əliyev ürəkdən, yatmadan, dincəlmədən, əziyyət çəkə-çəkə edirsiniz. Hansı yerdə, hansı rayonda təməl qoyursunuzsa, onun icrası ilə maraqlanır, açılışında iştirak edirsiniz. Buna vaxt lazımdır, sağlamlıq lazımdır. Allah Sizə sağlamlıq versin, amin. Eləcə də Mehriban xanıma Allah sağlamlıq versin. Allah Sizi qorusun.

Siz Azərbaycanın 20 faiz torpağını işğaldan azad etdiniz. Otuz iki il idi ki, biz Ağdam üzünə həsrət idik. Şəxsən mən hər dəfə Sizinlə görüşəndə deyirdiniz ki, tələsmə, mərhələ-mərhələ o günə də gəlib çatacağıq. Mehriban xanım deyirdi o sözü. Doğrudan da, şükürlər olsun bu günə ki, Siz onu həyata keçirə bildiniz. Elə qüvvələrlə rastlaşırdınız ki, mən televizorun qabağında saatlarla ayaq üstə durub gözləyirdim ki, görüm nə cavab alınacaq. Ona elə cavab verirdiniz, mat olurdu. Ona elə cavab verirdiniz ki, o, Sizin sözünüzdən dönə bilmirdi, Sizə baş əyirdi. Bunların hamısı Azərbaycanın Milli Qurucusu Heydər Əliyevin təcrübəsi idi. Onun vəsiyyəti idi. O, Azərbaycanın yüksəksəviyyəli memarı idi. Hər dəfə onunla görüş keçirəndə mən elə bilirdim ki, dünya bizimdir. Elə bilirdim ki, həyat bizimdir. O hakimiyyətə gəlməsə idi, Azərbaycan yox idi. O, hakimiyyətə gələndən sonra biz dirçəldik. Biz ondan sonra hər yerdə tanındıq. Həm də dünyanın hər yanında deyirdilər ki, Azərbaycanı Heydər Əliyev tanıtmışdır. İndi isə Sizin mərdliyiniz, qoçaqlığınız, güclü rəhbərliyiniz hesabına, şəhidlərimizin, qazilərimizin gücü, müharibə veteranlarımızın səyi ilə biz işğal olunmuş torpaqlarımızı azad etdik.

İndi gözəl şəhərlər salırsınız. Sizə uzun ömür, sağlamlıq arzulayıram. Arzu edirəm ki, heç bir pis qüvvə Sizə toxunmasın. Biz onu həmişə deyirik. Bütün ağdamlılar Sizi sevir. Balacasından tutmuş böyüyünə kimi bütün Ağdam camaatı Sizi dəstəkləyir. Hər dəfə söhbət düşəndə deyirlər, Allah İlham Əliyevə dəyməsin, Allah Mehriban xanıma dəyməsin. O, Azərbaycanın birinci xanımıdır. O, Azərbaycanın vitse-prezidentidir. O, İlham Əliyevə çox yaxşı kömək edir. Mən və bütün ağdamlılar arzu edirik ki, balaca Heydərimiz həmişə sağlam, gümrah olsun, Azərbaycana rəhbər olsun, Sizin özünüzün yetişdirməniz, kadrınız olsun. Necə ki, Ulu Öndərimiz Heydər Əliyev Sizi yetişdirib, onun vəsiyyətlərinin hamısına əməl edirsiniz, özü də yüksək səviyyədə. Bu hər övladın işi deyil. İndi isə balaca Heydər Azərbaycanın rəhbəri olsun. Biz onunla fəxr edirik. Biz Sizinlə fəxr edirik. Sizi sevirik, Sizi dəstəkləyirik. Bunu bütün ağdamlıların adından deyirəm, bütün komandamızın adından deyirəm.

Bir məsələni demək istəyirəm ki, mən Qarabağ atlarını ermənilərdən çox cəsarətlə aldım. O zaman aldım ki, 1992-ci il fevral ayının 26-sı idi, 366-cı alayın köməyi ilə Xocalıya hücum etdilər, Xocalını çox pis günə saldılar. Orada mənim 15 nəfər yaxın qohumum şəhid oldu. Beş nəfər yaxın qohumum əsir düşdü. Bu zaman onlar Qarabağ atını özəlləşdirmək, özününküləşdirmək istəyirdilər. Ona nail ola bilmədilər. Biz mərdliklə, qoçaqlıqla o atları gətirdik, Üçoğlanda toyuq fermasına yığdıq, orada saxladıq. Sonra da onları öz gücümüzlə Bakıya apardıq. Siz 2014-cü ildə Ağdamda köçkün şəhərciklərinin açılışında iştirak edəndə Sizə çatdırdıq ki, bəs Qarabağ atlarının vəziyyəti yaxşı deyil. Çox sağ olun, minnətdaram. Bu atlar Ağdamın milli simvolu idi. Ağdama böyük hörmət etdiniz, Qarabağ atı üçün böyük kompleks tikdirdiniz, Mehriban xanım da ona xarici dildə kitab yazdırdı, bütün dünyanın hər yanına yaydı.

Quzanlı kimi böyük bir şəhər salmısınız orada. Allah Sizdən razı olsun. Ağdam camaatı Sizə ömrü boyu minnətdardır ki, Qarabağ atını Ulu Öndərimiz Heydər Əliyevin tapşırığı ilə regionların iqtisadi inkişafı dövlət proqramına saldınız. İndi Sizin və Mehriban xanımın hesabına orada Qarabağ atı inkişafdadır, özü də yüksək səviyyədə.

Bizim qoşa minarəli Ağdam məscidini, Cümə məscidini ermənilər məhv etmişdi. Çox xırdalamıram. Onu Siz yenidən bərpa etdiniz. Biz ağdamlıların ürəyindən keçən işləri etdiniz. Muğam evini yaratdınız. Muğam evi bizim Ağdam üçün ən lazımlı bir yerdir. Həm Muğam evi, həm Qarabağ atı, həm də ki, o başqa işlərin hamısını Siz yüksək səviyyədə gördünüz. Allah Sizin köməyinizdə olsun. Siz yaxşı ailənin, gözəl ailənin, Ulu Öndərimiz Heydər Əliyevin düzgün, cəsarətli oğlusunuz. Onun vəsiyyətlərini Siz yerinə yetirdiniz. Öpürəm Sizi. Bütün ağdamlıların adından Sizə öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Biz səni sevirik. Səni də, bütün uşaqlarını da, balaca Heydəri də sevirik.

Prezident **İlham Əliyev**: Sağ olun, mən də sizi sevirəm.

**Həmin kişi sakin**: Sənin arxanca haraya desən, getməyə hazırıq. Siz ki, o qatarı gətirib Ağdama çıxarmısınız, nə desən, etməyə hazırıq. Ağdamda Baş plan üzrə gözəl şərait yaradırsınız. O Baş plan haqqında mənim məlumatım var. Allah Sizə ömür versin. Allahdan arzu edirəm ki, İlahi qüvvə sənə, yoldaşına, balalarına sağlam ömür versin.

Prezident **İlham Əliyev**: Sağ olun.

* * *

Daha sonra sakinlərə evlərin açarlarının təqdim edilməsi mərasimi olub.

Dövlətimizin başçısına minnətdarlığını bildirən **Maarif Hüseynov** deyib: Öpürəm Sizi. Bütün Azərbaycanı yaşatdın, təkcə Ağdamı yox. Ağdamın əhalisi səni çox istəyir, sənin arxandadır, necə deyim, ürəyin istəyən qədər sənə köməyi var. Öpürəm səni, öpürəm.

Prezident **İlham Əliyev**: Çox sağ olun. Bilirsiniz, biz Eyvazxanbəylidə də gözəl bir mərkəz yaradacağıq.

**Maarif Hüseynov**: Sağ olun, bilirəm, bilirəm.

Prezident **İlham Əliyev**: Yəni, atın əsl vətəni oradır da, bilirsiniz.

**Maarif Hüseynov**: Oradır, amma inanın ki, o nəslin korlanmasının qarşısını alan birinci növbədə Ulu Öndərimiz Heydər Əliyev oldu.

Prezident **İlham Əliyev**: Amma siz o vaxt o atları çıxarmasaydınız, onlar batacaqdı.

**Maarif Hüseynov**: Erməni sevinəcəkdi, deyəcəkdi, Qarabağ da bizimdir, elə Qarabağ atları da. Öpürəm Sizi, çox sağ olun. Sizə uzun ömür arzu edirəm. Balalarınız xoşbəxt olsun. O balaca Heydər Sizə həmişə dayaq olsun.

**Mehriban xanım Əliyeva**: Balaca Heydər artıq böyüyüb (gülür).

**Maarif Hüseynov**: Çox xoşbəxt olsunlar. Balaları ilə xoşbəxt olsun.

**Mehriban xanım Əliyeva**: Çox sağ olun.

Prezident **İlham Əliyev**: İki uşağı var.

**Sakinlər**: Allah saxlasın.

Prezident **İlham Əliyev**: İki oğul.

**Maarif Hüseynov**: Siz Azərbaycanı bütün dünyada tanıdırsınız. Siz o polad yumruğunuzla elə cəsarətli komandanlıq edirdiniz ki, həyatda heç vaxt unudmazsınız. Siz xeyirxah adamsınız. Bax, o da, Siz də. Yaradırsınız, xalqı yaşadırsınız, xalqa çörək verirsiniz. Bunlar hamısı Sizin qanınızda var, Sizdə var. Sağ olun.

Prezident **İlham Əliyev**: Çox sağ olun. Təbrik edirəm, xoşbəxt yaşayın.

**Maarif Hüseynov**: Çox sağ olun, Allah Sizdən razı olsun.

* * *

Sonra xatirə şəkilləri çəkdirilib.

* * *

**Qadın sakin**: Sizin ad gününüzü təbrik edirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Allah-taala Sizi dövlətimizin, millətimizin üzərindən əskik etməsin, əskik olmayasınız. Siz bu gün bizə 30 illik həsrətin sevincini yaşatdınız. Doğma Vətənimizə qayıtdığımız üçün Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun. Biz anaların xeyir-duası həmişə Sizin üstünüzdə olsun.

**Kişi sakin**: Cənab Prezident, bu gün doğum gününüzdə burada camaatla görüşməyinizlə, elə bil ki, Ağdamı dirçəltdiniz, camaatın ürəyini genişləndirdiniz. Allah Sizi qorusun, Allah Sizə dəyməsin!

**AZƏRTAC-ın materialları əsasında**

# Qüdrətli Ali Baş Komandan, xilaskar rəhbər

*Vətən müharibəsinin nəticələri, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlanan münaqişənin şanlı Qələbə ilə yekunlaşması uğurlu siyasətin və strategiyanın bəhrəsidir. Prezident İlham Əliyevin Ali Baş Komandan kimi göstərdiyi qətiyyət, lider olaraq prinsipial mövqeyi, uzaqgörən diplomatiyası və humanist yanaşması bu tarixi uğurun əldə olunmasında həlledici rol oynadı. Məhz bu amillər xalqımızın zəfərə çatmasını təmin etməklə yanaşı, minlərlə insanın həyatının qorunmasına da imkan yaratdı.*



Vətən müharibəsinin möhtəşəm Qələbə ilə yekunlaşmasından və xalqımızın uzun illər davam edən yurd həsrətinin sona çatmasından artıq 5 ildən çox zaman ötür. Şanlı Zəfərimizin beşinci ildönümü həm respublikamızda, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən böyük fəxr və qürur hissi ilə qeyd olundu. Ermənistan silahlı qüvvələrinin torpaqlarımızı işğal etməsinə qəti şəkildə son qoyuldu, düşmən məğlub edildi. Artıq beş ildən çoxdur ki, Şuşa şəhərində beynəlxalq səviyyəli tədbirlər, festivallar və müsabiqələr təşkil olunur. Uzun illər ərzində dağıdılmış və talan edilmiş şəhər və kəndlərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri ardıcıl və uğurla davam etdirilir. Keçən hər gün və keçən hər ay vətəndaşlarımızın doğma torpaqlarına qayıdışını daha da sürətləndirir. Ərazi bütövlüyümüzün bərpa olunması ilə ədalət öz yerini tapıb, əzəli Azərbaycan torpaqları həqiqi sahiblərinə qaytarılıb. Bununla yanaşı, bir milyondan artıq insanın qaçqın və məcburi köçkün həyatına son qoyulub. Biz şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edir, Qələbənin qazanılmasında payı olan hər kəsi hörmətlə anırıq. Bu gün qürurla deyə bilirik ki, artıq qayım-qədim yurd yerlərimizə ayaq basırıq, rahat şəkildə yaşayırıq.

Bir insanın həyatını xilas etmək bəşəriyyət üçün ən böyük dəyər sayılır və bu, bütöv bir dünyanı xilas etməyə bərabər tutulur. Vətən müharibəsində əldə olunan şanlı Zəfərdən sonra Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə icra edilən hərbi əməliyyatlar, Azərbaycan Ordusunun döyüş taktikaları geniş şəkildə araşdırılır və təhlil olunur.

Biz isə bu məsələyə fərqli baxış bucağından - humanist dəyərlər prizmasından, insan həyatının qorunmasının əhəmiyyəti baxımından yanaşmağı məqsədəuyğun hesab edirik. İnsan həyatının xilas edilməsi deyildikdə, ilk növbədə fədakarlıq göstərən hərbi həkimlər yada düşür. Bununla yanaşı, reallıq göstərir ki, sərkərdənin uzaqgörənliyi, dəqiq planlaşdırılmış qərarları, qəti mövqeyi və güclü siyasi iradəsi, eləcə də səmərəli diplomatik fəaliyyəti döyüşlər başlamamışdan əvvəl belə minlərlə insanın həyatının qorunmasına imkan yaradıb.

44 günlük Vətən müharibəsi zamanı döyüş əməliyyatlarına bilavasitə rəhbərlik edən Müzəffər Ali Baş Komandan İlham Əliyev əməliyyat vəziyyətinə uyğun olaraq hərbi rəhbərliyə konkret tapşırıqlar verirdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da qeyd etdiyi kimi, bu tapşırıqlar sırasında xüsusi əhəmiyyət daşıyan bir göstəriş var idi. Hərbi komandanlıq bu göstərişi böyük dəqiqliklə icra edirdi, çünki Prezidentin bu tələbi torpaqlarımızın işğaldan azad edilməsi qədər vacib və həyati əhəmiyyət malikdir.

Məhz həmin xüsusi tapşırığın mahiyyəti və humanist məzmunu sonradan imzalanan Üçtərəfli Bəyanatın müddəalarında da öz aydın əksini tapdı. Bu yanaşma Prezident İlham Əliyevin insan həyatına verdiyi yüksək dəyərin, uzaqgörənliyin və humanist siyasətinin bariz nümunəsidir.

Ermənistan silahlı birləşmələrinin torpaqlarımızı işğal altında saxladığı illərdə də, Vətən müharibəsi dövründə də dövlət başçısı bu həyati məsuliyyətin öhdəsindən məharətlə gəldi. Uzun müddət səbir və təmkin nümayiş etdirərək münaqişənin danışıqlar yolu ilə həllinə çalışması da onun humanist mövqeyinin təzahürü idi. Nəticədə minlərlə insanı ölüm təhlükəsindən xilas edən Prezident İlham Əliyev xilaskar sərkərdə kimi də tarixə düşdü.

Fikrimizcə, bu tapşırığın mahiyyəti və əhəmiyyəti özünün ən dolğun ifadəsini Üçtərəfli Bəyanatın müddəalarında tapıb.

Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi komandanlıq qarşısında qoyduğu əsas vəzifə döyüş əməliyyatlarında qələbə qazanmaqla yanaşı, ordumuzun sıralarında şəxsi heyət itkilərinin minimuma endirilməsi idi. Dövlət başçısının verdiyi hər bir tapşırıq və qəbul etdiyi hər bir qərar, ilk növbədə, insan həyatının qorunmasına xidmət edirdi. Onun əsas məqsədi mümkün qədər az sayda vətəndaşımızın yaralanması və həlak olması idi.

Ali Baş Komandanın xüsusi göstərişi döyüşlərdə maksimum səy göstərərək, eyni zamanda, daha çox insanın həyatını xilas etməyə nail olmaqdan ibarət idi. Prezident İlham Əliyev bu humanist mövqeyini yalnız öz hərbçilərimizə deyil, qarşı tərəfin əsgərlərinə münasibətdə də ortaya qoyurdu. O, Ermənistan rəhbərliyinin siyasi ambisiyalarına qurban gedən, mənasız bir yol uğrunda həyatını itirən düşmən əsgərlərinin taleyinə də biganə qalmırdı.

Müzəffər Ali Baş Komandan hətta düşmən ordusunda xidmət edən gənclərin ailələrini, onları böyüdən valideynləri belə düşünürdü ki, bu da onun yüksək humanist dəyərlərə malik lider olduğunu göstərir. Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev bu mövqeyini təkcə müharibə dövründə deyil, hələ aktiv döyüşlər başlamazdan xeyli əvvəl də açıq və qətiyyətlə bəyan etmişdi.

Dövlət başçısı İlham Əliyevin "Biz heç vaxt müharibə istəmirik, biz sülh yolu ilə torpaqlarımızın azad edilməsinin tərəfdarıyıq. Lakin biz heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına və torpaqlarımızın işğalda qalmasına ilə barışmayacağıq. Qarşı tərəf sülh danışıqlarına məhəl qoymazsa, işğal etdiyi ərazilərimizi xoşluqla tərk etməzsə, o zaman səbri tükənmiş xalqımız və qüdrətli ordumuz torpaqlarımızı hərbi yolla azad edəcək və ərazi bütövlüyümüzü bərpa edəcək. Bu, bizim beynəlxalq qanunlara görə təmin olunmalı hüququmuz, haqqımızdır. Bizim yolumuz haqq yoludur və biz tarixi ədaləti öz gücümüzlə bərpa etməyə qadirik. Əgər erməni əsgəri Azərbaycan torpaqlarında ölmək istəmirsə, o zaman Ermənistan silahlı birləşmələri qeyd-şərtsiz torpaqlarımızdan çıxmalıdır" fikirləri onun humanizm prinsiplərinə sadiqliyinin təzahürüdür. Prezidentimizin uzun illər müxtəlif beynəlxalq kürsülərdə və respublikamızda keçirilən tədbirlərdəki çıxışlarında səsləndirdiyi bu fikirlərin mayası məhz yuxarıda bəhs etdiyimiz ideyalardan yoğrulmuşdu. Dövlətimiz də, xalqımız da, ordumuz da məhz bu ideyanı əsas tutaraq, əgər düşmən sülhə razı olmazsa, "Hər şey Vətən üçün" deyərək məsələnin həllinin hərb variantına, yəni, müqəddəs vəzifənin icrası üçün döyüşə hazırlaşırdı. Ordu quruculuğu istiqamətində atılan addımlar, həyata keçirilən islahatlar, təminat və təchizatın, yeni müasir silahların arsenalımıza daxil olması da məhz bu xüsusi tapşırığın icrasına yönəlmişdi: mümkün qədər az insan itkisi ilə torpaqlarımızı işğaldan azad etmək. Bir ideya, bir amal ətrafında "Dəmir yumruq" kimi birləşən xalqımız, həmrəy olan bütün azərbaycanlılar müqəddəs vəzifənin öhdəsindən 44 günlük Vətən müharibəsində uğurla gəldilər. Haqq-ədalət zəfər çaldı və torpaqlarımız qəhrəman övladlarımızın qanı, canı bahasına işğaldan azad edilərək əsl sahibinə - Azərbaycan xalqına qaytarıldı. "Qarabağ Azərbaycandır!" şüarı ilə əzmimiz nəticə verdi, torpaqlarımız azad oldu. Bu arzu reallaşdıqca, münaqişənin həlli mümkün oldu və regionda insanların təhlükəsiz, sülh dolu, əmin-amanlıq içində, rahat və firavan yaşamaları təmin edildi, eyni zamanda, dövlətlərin iqtisadi inkişafına təkan verən yeni şərait yarandı. Fəxr edirik ki, bu yenilikləri yalnız region ölkələri deyil, dünyanın aparıcı dövlətləri də müsbət və razılıqla qarşılayıblar. Bu reallıqlar Azərbaycan Prezidentinin dövlət başçısı, həm hərbi, həm də diplomatik sahədə səriştəli lider kimi fəaliyyətinin gərgin əməyinin və möhkəm iradəsinin nəticəsidir. Vətən müharibəsinin döyüşlərindən bir neçə il keçdikdən sonra o dövr - yəni, 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən hadisələri xatırladıqda görürük ki, Prezidentimizin ən böyük nailiyyəti yalnız ərazilərimizin bir hissəsini azad etməsi deyil, həm də minlərlə insan həyatının qorunması və evlərinə sağ-salamat dönmələrinin təmin edilməsidir.

Döyüşsüz və əlavə qan tökülmədən üç rayonun azad olunması ilə Prezident İlham Əliyevin xilaskarlıq missiyası yalnız Azərbaycan Ordusunun əsgərlərinə deyil, həm də 28 ildən çox işğal altında qalmış torpaqlarımızı talan edən düşmən ordusunun şəxsi heyətinə də müsbət təsir göstərdi. Nəticədə bəlkə də on minlərlə erməni gənc sağlam şəkildə evlərinə və ailələrinə qayıda bildi. Bu hadisənin mahiyyəti və əhəmiyyəti bir sıra açıq faktlarla təsdiqlənir. Bu faktlara diqqət yetirdikdə, addımın böyüklüyü aydın şəkildə görünür.

Məlumdur ki, 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu 20 noyabr, Kəlbəcər rayonu 25 noyabr, Laçın rayonu isə 1 dekabr 2020-ci il tarixlərində döyüşsüz şəkildə Ermənistan silahlı qüvvələri tərəfindən boşaldılaraq Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib.

İşğalçılıq ən amansız müharibə, siyasət isə ən ədalətsiz döyüşdür. Hər ikisinin qanunu, qaydası yoxdur, qayəsi daha çox haqsızlıqdır. İşğalçı müharibələr haqqa xidmət etmir. Siyasi savaşlar da çox zaman haqq üçün, haqlı üçün deyil, merkantil maraqlara, şəxsi ambisiyalara, başqa xalqların haqlarını danmağa, qəsb etməyə, ya da qəsbkarları müdafiə etməyə xidmət edir.

Yer üzündə min illər ərzində baş verən müharibələr arasında isə bir savaş var ki, o döyüşdə iştirak etmək, vuruşmaq, qan tökmək, qanından və canından keçmək insana yalnız başucalığı gətirir və bu yolda həlak olanlara - şəhidlərə əbədi həyat bəxş edir. Bu da Vətən müharibəsidir.

Qırx dörd gün davam edən və xalqımızın qələbəsi ilə başa çatan Vətən müharibəsi də bu qəbildəndir. Çünki bu müharibədə Azərbaycanın məqsədi o idi ki, tarixi ədaləti bərpa etsin, qəsb edilən haqqını geri alsın, ərazisini işğalçı düşməndən xilas etsin, insanların doğma yurd-yuvasına qayıtmasını, firavan, xoşbəxt yaşamasını təmin etsin.

Bu münaqişənin xalqımızın Qələbəsi ilə başa çatmasına nail olan Ali Baş Komandan isə müharibədə həm minlərlə insanın həyatını, həm də ölkəmizin xoşbəxt gələcəyini xilas etdi, eləcə də regionun firavanlığına və iqtisadi inkişafına əvəzolunmaz töhfələr verdi.

Zamanın hər dövründə - istər böyük, istər kiçik müharibələrdə ən böyük nailiyyət yalnız döyüşdə qalib gəlmək deyil, həm də doğru qərarlar qəbul edərək, strateji addımlar ataraq mümkün qədər çox insanın həyatını xilas etməkdir. Tarix belə liderləri həm müzəffər sərkərdə, həm də xilaskar rəhbər kimi yadda saxlayır, onların adı könüllərdə yaşayır və tarix səhifələrində əbədi qalır.

Vətən müharibəsində əldə olunan şanlı Zəfərdən sonra Ali Baş Komandan İlham Əliyev yalnız düşməni məğlub etməklə kifayətlənmədi; üç rayonun döyüşsüz azad olunması ilə minlərlə insanın həyatını xilas etdi. Vətəndaşlarının həyatını hər şeydən üstün tutan humanist lider olaraq adını tarixə yazdı və son 200 ilin ən parlaq qələbələrindən birinə imza atdı. Bu hadisə Azərbaycan xalqı üçün böyük qürur mənbəyi olmaqla, əbədi olaraq xatırlanacaqdır.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır

*Azərbaycan xalqı bu gün əsrlər boyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahibdir. Rəşadətli Azərbaycan Ordusunun və onun qəhrəman əsgər və zabitlərinin, şəhidlərimizin qanı, canı hesabına xalqımızın milli sərvəti sayılan ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olunub. Bütün ölkə ərazisində konstitusiya quruluşumuz bərqərar edilib. Xalqımız böyük qürur və fəxarət hissi ilə bu il müəllifi Ümummilli Lider Heydər Əliyev olan Milli Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi qələbəmizin 5-ci ildönümünü təntənə ilə qeyd etdi. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 dekabr 2024-cü il tarixdə Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Sərəncam imzalayıb.*




Tarixi əhəmiyyətə malik olan bu sərəncam Böyük Zəfərimizin regionda və dünya siyasətində yol açdığı yeniliklərin, eyni zamanda, 1995-ci ildə Milli Konstitusiyamızın qəbul edilməsindən ötən dövr ərzində Azərbaycanın hüquqi dövlət kimi möhkəmlənən mövqeyinin təqdimatında əsaslı rol oynadı. Sevindirici haldır ki, bu gün hər birimiz müasir müstəqil Azərbaycanın uğurlarından, regionda və dünyada söz sahibliyindən, sözünün imzası qədər əhəmiyyətli olmasından qürur hissi ilə söhbət açırıq. Ölkəmizin hazırkı vəziyyətini müstəqilliyimizin bərpasının ilk illəri ilə müqayisə etdikdə qazandığımız uğurlara görə kimə borclu olduğumuzu bir daha aydın şəkildə dərk edir, bunu gənc nəslə çatdırmağı qarşımızda məqsəd qoyur və bir ölkə vətəndaşı olaraq özümüzə borc bilirik. Xatırladaq ki, müstəqilliyini bərpa etmiş Azərbaycanın yeni mərhələdə qarşısında duran tarixi vəzifələrin öhdəsindən o dövrdəki hakimiyyət gələ bilmədi, ölkəmiz böyük çətinliklərlə, faciələrlə üz-üzə qaldı, cəmiyyət həyatının bütün sahələrində kəskin böhran, anarxiya baş alıb getdi. Torpaqlarımız "Böyük Ermənistan" xülyası ilə yaşayan bədnam qonşularımız tərəfindən işğal edildi, xalqımızın milli mənliyinə sarsıdıcı zərbələr endirilirdi. Müstəqilliyin ilk illərində həlli çətin görünən problemlərlə üzləşmiş Azərbaycan Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin aqibətini yaşamaq həddinə gəlib çıxdı. Belə bir çətin dövrdə xalqın təkidli tələbi və çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev müstəqilliyimizin qorunub saxlanması və inkişafı üçün taleyüklü problemləri müdrikcəsinə həll etdi, ölkəmiz öz inkişaf yolunu tutdu. Beləliklə, Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də əldə etdiyi dövlət müstəqilliyini məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə möhkəmləndirdi. 1995-ci il noyabrın 12-də isə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Qəbul olunan Konstitusiya ölkəmizdə genişmiqyaslı qanunvericilik və hüquqi islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın rifahının yüksəlməsi, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı. İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Milli Konstitusiyamızda əksini tapan müddəaların böyük əksəriyyəti də insan hüquqlarının qorunmasına həsr edilib. Konstitusiyamızın qəbulundan ötən dövr ərzində bu ali sənədə 3 dəfə - 2002, 2009 və 2016-cı illərdə əlavə və dəyişikliklərin edilməsi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə" İnsan Hüquqları Günü" kimi təsis olunması insan hüquqlarının qorunmasının prioritetliyini təsdiqləyir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi də ölkəmizdə bu sahədə atılan növbəti addımların davamıdır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixi Zəfərə imza atıb, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunub, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunan bütün ərazilərdə bərqərar olub, Dövlət Bayrağımız əzəli torpaqlarımızda əzəmətlə dalğalanmaqdadır, Qarabağ və Şərqi Zəngəzur dirçəldilir, keçmiş məcburi köçkünlərin doğma ata-baba yurdlarında daimi məskunlaşması təmin olunur.

19 sentyabr 2024-cü il tarixində Prezident İlham Əliyev "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalamaqla hər il sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi qeyd ediləcəkdir. Bu addımla Azərbaycanın müasir tarixində daha bir şərəfli günün qeyd olunmasına səbəb olmuşdur. Suverenlik dövlətin daxili və xarici işlərdə müstəqilliyini tam səlahiyyətə malik olmasını təmin edən fundamental prinsipdir. Azərbaycan xalqının tarixi mübarizəsi nəticəsində suverenlik bərpa olunaraq müstəqil dövlət qurulmuşdur. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Konstitusiya bu suverenliyi möhkəmləndirmiş və hüquqi əsaslar yaratmışdır. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycan dövlətçiliyinin əsaslarını daha dərindən dərk etmək və gələcək nəsillərə ötürmək üçün əhəmiyyətli bir addımdır. Bu il ərzində dövlət suverenliyinin qorunması və inkişaf strategiyasının hazırlanması, Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin əhəmiyyətini vurğulayan maarifləndirmə tədbirləri təşkil edilmişdir. Bu il təkcə tarixi hadisələrin qeyd olunması üçün deyil, eyni zamanda, Azərbaycanın hüquqi və dövlətçilik inkişafının daha da gücləndirilməsi üçün bir imkan idi. Konstitusiya hər bir müasir dövlətin hüquqi strukturunda normativ nüvəni təşkil edir. Azərbaycanın dövlət quruculuğu prosesində Konstitusiya yalnız hüquqi sənəd deyil, həm də siyasi legitimliyin, hüquqi sabitliyin və milli suverenliyin əsas sütunu kimi çıxış edir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində bu sənədin hüquqi, siyasi və sosial aspektlərinin yenidən dəyərləndirilməsi, konstitusional düşüncənin dərinləşdirilməsi baxımından mühüm imkanlar yaratmışdır. Bu baxımdan, Konstitusiyanın elmi tədqiqi və tətbiqinin təkmilləşdirilməsi hüquqi dövlətin davamlı inkişafına xidmət edən əsas şərtlərdən biri kimi çıxış edir. 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi ölkənin hüquqi əsaslarının, milli dövlətçiliyin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində mühüm mərhələ oldu. Bu il Konstitusiyanın dövlət idarəçiliyindəki rolunun daha dərindən təhlil olunması və ictimai şüurda onun yerinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan dövlətinin insan hüquqlarının müdafiəsi sahəsində gördüyü işlər, həyata keçirdiyi tədbirlər nəinki ölkədaxili səviyyədə, eyni zamanda, regional və qlobal miqyasda mühüm əhəmiyyət kəsb etməklə özünün fundamental xarakteri ilə seçilir. Şərqdə ilk dəfə olaraq ölüm cəzasının məhz ölkəmizdə ləğv edilməsi gənc dövlətimizin humanist mahiyyətinin bariz təcəssümü kimi dəyərləndirilir. Hələ 1993-cü ildən Ulu Öndər Heydər Əliyev tərəfindən icrasına moratorium qoyulmuş bu müstəsna cəza növü 1998-ci ildə tamamilə ləğv edilib və bu addım həm ölkə ictimaiyyəti, həm də beynəlxalq birlik tərəfindən rəğbətlə qarşılanıb. Həmçinin, Ümummilli Lider Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində əvvəl unudulmuş əfv və amnistiya təsisatları 1995-ci ildən bərpa olundu.

1995-2003-cü illərdə Ümummilli Lider Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanıb. Bir qayda olaraq əlamətdar günlərlə bağlı imzalanan əfv fərmanları məhkumlarda və onların yaxınlarında böyük sevinc hissi doğurub. Ulu Öndər Heydər Əliyev, eyni zamanda, Azərbaycanda amnistiya aktlarının qəbulunu da mütərəqqi ənənəyə çevirdi. 1995-ci ildən etibarən qəbul edilən 12 amnistiya aktı 130 mindən artıq nəfərə şamil edildi. Ulu Öndərin rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini formalaşdırdı. Bu möhkəm təməl üzərində qurulan dövlət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir. Dövlət başçısının siyasi fəaliyyətinin mərkəzində insan amili, vətəndaş rifahı, sosial ədalət və mərhəmət prinsipləri dayanır. Məhz bu humanist yanaşmanın nəticəsidir ki, ölkəmizdə cinayət-hüquq siyasətinin formalaşdırılmasında da humanizm əsas prinsip kimi qəbul edilib. Prezident İlham Əliyev tərəfindən 2003-2025-ci illər ərzində 39 əfv sərəncamı imzalanıb, həmin dövrdə 5 amnistiya aktı qəbul edilib.

Ulu Öndər Heydər Əliyevin mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış etmək, humanizm ideyalarını həyata keçirmək Heydər Əliyev Fondunun da başlıca məramlarından biridir. 2007-ci ildə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə parlamentin qəbul etdiyi "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar da Ulu Öndərin əsasını qoyduğu humanizm ənənələrinin davamının əyani təcəssümü idi. Dahi Liderin anadan olmasının 84 illiyi münasibətilə qəbul edilən amnistiya qərarı ilə 9 mindən artıq məhkum bağışlanıldı.

Ümumilikdə 71 əfv fərmanı və sərəncamla 10162 məhkum əfv edilib. Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar isə 7060 nəfərə şamil olunub. Prezident İlham Əliyevin təşəbbüsü əsasında 2021-ci ildə 8 Noyabr - Zəfər Günü münasibətilə elan olunan amnistiya aktı 17 mindən artıq nəfərə şamil edilib.

Suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək, Prezident İlham Əliyev 15 dekabr 2025-ci ildə növbəti amnistiya elan edilməsi təşəbbüsünü irəli sürdü.

Suverenliyimizin bərpası milli həmrəyliyimizi, dövlətçilik ideologiyamızı daha da möhkəmləndirdiyini, xalq-dövlət birliyinin sarsılmazlığını bütün dünyaya nümayiş etdirdiyini və gələcək nəsillər üçün əbədi örnək olduğunu fəxrlə bəyan edərək, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Azərbaycan Respublikasının Milli Məclisi suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasının memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüsü dəstəkləyərək və Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, 19 dekabr 2025-ci il tarixdə "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiyanın elan edilməsini qərara alıb. Hazırda respublikamızda amnistiya qərarının icrasına başlanılıb.

Ümidvarıq ki, hər bir vətəndaşımızın ürəklə, canıyananlıqla iştirakının vacib olduğu bu prosesdə, ölkəmizin daha da güclənməsində amnistiya aktından - qələbəmizin memarının humanist addımından bəhrələnən və yenidən azadlığa qovuşan insanlar da fəal iştirak etməyə çalışacaqlar.

Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır və bu dəyərlərin qorunması ölkənin gələcək inkişafı üçün mühüm rol oynayır. Hər bir vətəndaş konstitusiyanı öyrənməli, onun prinsiplərinə hörmət etməli və dövlətin suverenliyini qorumaq üçün çalışmalıdır. Əminliklə deyə bilərik ki, "Konstitusiya və Suverenlik İli" bu dəyərlərin daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verdi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Uğurlarınız bol olsun!




Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun idman komandası Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş Kempo-Kobuda idman döyüş növləri üzrə 28-ci Açıq Respublika birinciliyində iştirak ediblər.

Milli Müdafiə Universiteti xəbər verir ki, birinciliyə qatılan Hərbi İnstitutun 22 nəfərdən ibarət komandası yüksək nəticələr göstərərək 12 qızıl, 10 gümüş medal qazanıb.

Milli Müdafiə Universiteti olaraq kursantlarımızı təbrik edir, onlara gələcək idman fəaliyyətlərində və təhsildə daha yüksək nəticələr əldə etmələrini arzu edirik.

* * *

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda keçirilən XII Muxtar Respublika yazı, tətbiqi sənət və rəsm müsabiqəsində Naxçıvan Hərbi Kollecinin müəllim və kursantlarından ibarət heyəti iştirak edib.

Müsabiqədə iştirak edən Naxçıvan Hərbi Kollecinin müəllimi Şükürova Aysun Bahadur qızı I yerə layiq görülüb. Eyni zamanda, musabiqədə iştirak edən kollecin kursantı Həsənov Nuran Zavur oğlu III yerə layiq görülüb.

Sonda Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Elxan Nəcəfov qalibləri təbrik edərək, onlara diplom və mükafatlar təqdim edib.

* * *

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Mən hüquqlarımı bilirəm" mövzusunda keçirilən XII Muxtar Respublika yazı müsabiqəsində iştirak edən Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin kursantı Əliyev Elvin Elçin oğlu daha inamla iştirak edərək müsabiqənin qalibi olub.





Kursantımızı təbrik edir, ona gələcək fəaliyyətində uğurlar arzu edirik.



* * *

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində "Konstitusiya və Suverenlik İli" çərçivəsində Naxçıvan şəhər İdman İdarəsinin təşkilatçılığı ilə ali və orta ixtisas təhsili müəssisələrinin yeniyetmə və gəncləri arasında qol güləşi üzrə yarış keçirilib.

Yarışda Naxçıvan Hərbi Kollecinin kursantları Ağahüseyinov Kamran Zaur oğlu, Rəhimov Ramal Azif oğlu və Məhsimov Fərid Zahuddin oğlu I yerə, Qaflanov Salam Eyvaz oğlu isə II yerə layiq görülüblər.

Sonda qalib olan kursantlar diplom və hədiyyələrlə mükafatlandırılıblar.

## HHQ-də "Konstitusiya və Suverenlik İli" ilə bağlı tədbirlər keçirilib

*2025-ci il üzrə təsdiq edilmiş hazırlıq planına uyğun olaraq, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi hissələrində silsilə maarifləndirici və ideoloji tədbirlər təşkil olunub.*



Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsinin mühüm ictimai-siyasi əhəmiyyətindən bəhs ediblər. Qeyd olunub ki, bu qərar hüquqi dövlət quruculuğunun möhkəmləndirilməsi, milli suverenliyin daha da gücləndirilməsi baxımından xüsusi önəm daşıyır və cəmiyyətin bütün sahələrində inkişaf prosesinə töhfə verir.

Tədbirlərin davamında Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə, bu Zəfərin əldə olunmasında xalqımızın nümayiş etdirdiyi möhkəm birlik və hərbçilərimizin göstərdiyi qəhrəmanlıq nümunələri vurğulanıb.

Şəhidlərimizin xatirəsinin daim uca tutulacağı qeyd edilib, azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işlərinin, həbelə Böyük Qayıdış prosesinin dövlətimizin və xalqımızın doğma torpaqlara verdiyi yüksək dəyərin bariz nümunəsi olduğu diqqətə çatdırılıb.



### Maraq dünyamız

## Heyvanları "daşa çevirən" göl



Tanzaniyanın şimalında, Keniya ilə sərhədin yaxınlığında dərinliyi 3 metrə yaxın kiçik bir göl - Natron gölü yerləşir. Gölün adı da natron mineralının adından əmələ gəlib.

Göl əsasən Şimali Keniyada minerallarla zəngin ərazidən başlayan Evaso Nqiro çayı ilə qidalanır.

Natron gölü olduqca yüksək duzluluğa və qələviliyə malikdir. Göldəki sianobakteriyalar suya qırmızı rəng verir.

Mövsümdən asılı olaraq gölün üzəri Şərqi Afrika dərəsindən gələn vulkanik kül ilə birgə mineral duzlarla örtülə bilir.

Ehtimallara görə, Pleystosen dövründə (2.58 milyon il əvvəldən 11.7 min il əvvələ kimi) natrium və kalium karbonatları ilə zəngin olan nadir lava növü olan "Ol Doinyo Lengai" vulkanı uzun müddət bu gölə axıb.

Gölün qələviliyi suyun səviyyəsindən asılı olaraq 9-10,5 pH arasında dəyişir, temperaturu isə 60 °C-ə çatır. Bu səbəbdən də gölə düşən hər bir canlı (xüsusən də quşlar) həlak olurlar. Bu zaman onların qalıqları mineral maddələrlə örtülür və daşlaşmağa başlayır.



Fotoqraf Nik Brandt Afrikaya səfəri zamanı ilk dəfə göldə heyvanların "daşa çevrilməsini" aşkar edib. Burada müxtəlif canlıların çox sayda skeleti və qalıqları var.

Maraqlıdır ki, bir çox canlı üçün ölümcül yer olan bu göl flaminqoların artımı üçün çox əlverişlidir.

Natron gölü unikal və heyrətamiz bir yerdir. Dünyanın dörd bir yanından alimləri, fotoqrafları və turistləri özünə cəlb edir.

**"Azərbaycan Ordusu"**

---

Polkovnik Orucov Mehman Qurbanəli oğluna verilmiş MN № 0068023 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Kapitan Vəlizadə Ülvi Cəmaləddin oğluna verilmiş MN № 0052873 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məmmədov Şahid Məmmədxan oğluna verilmiş AD № 0030554 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 967
Nüsxə 3665